# VƏTƏN SİZƏ OĞUL DEDİ

***MAXE Abbasov İlham***



***MAXE Abbasov İlham Əli oğlu 2000- ci ildə Füzulidə anadan olub.***

***O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək sentyabrın 29 -da elə doğulduğu Füzuli uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhidlik zirvəsinə ucalıb.***

***Onun nəşi noyabrın 17 -də tapılaraq Füzulidə dəfn edilib.***

***Vətən müharibəsinin qəhrəman şəhidi leytenant Hafis Qasımov***



***Hafis Cavanşir oğlu Qasımov 1998-ci il iyul ayının 18-də Culfa rayonunun Camaldın kəndində anadan olmuşdur. 2004-2012-ci illərdə Camaldın kənd tam orta məktəbində oxumuş, 8-ci sinfi bitirdikdən sonra 2012-2015-ci illərdə Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi liseydə təhsil almışdır. 2015-ci ildə həmin liseyi bitirərək H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olmuşdur.Kursantlıq illərində 2018-ci ildə Azərbaycan ordusunun yaranmasının yüz illiyi ilə əlaqədar keçirilən paradda iştirak etmiş və "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif edilmişdi. 2019-cu ildə həmin məktəbi "Şəxsi heyətlə iş üzrə bölük komandirinin müavini" ixtisası üzrə bitirib.***

***İşğal olunmuş Azərbaycan torpaqlarının azad olunması uğrunda başlanan "Vətən müharibəsi"nin ilk günlərindən döyüşlərdə iştirak edən Hafis Qasımov Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə 14 oktyabr 2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.***

***Şəhid polkovnik-leytenant Sadıqov Yaşar***



***Azərbaycan Ordusunun Vətən müharibəsində Murov istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olan polkovnik-leytenantı Sadıqov Yaşar Füzuli oğlu Bakıda yerləşən 2-ci Şəhidlər Xiyabanında dəfn edilib.***

***Vətən müharibəsinin qəhrəman Şəhidi Vüqar Əsgərov***



***Əsgərov Vüqar Rza oğlu 1994-sü il 26 noyabr Naxçıvan MR, Kəngərli rayon Qarabağlar kəndində anadan olub. 2001-ci il Qarabağlar kənd 2 nömrəli tam orta məktəbin 1-ci sinifinə daxil olub, 2012-ci il həmin məktəbi bitirib. Elə həmin il Azərbaycan Pedaqoji İnstitunun Azərbaycan dili və ədəbiyyat müəllimliyi fakültəsinə daxil olur, lakin ailəsi maddi sıxıntı yaşadığından təhsilini davam etdirmir. Hərbi xidmətə yollanır. 2014cü il hərbi xidməti başa vurduqdan sonra yenidən ali məktəbə sənədlərin verir və yenə ödənişli əsaslarla universitetə qəbul olur. Təəssüf ki, yenə də ali təhsil almaq qismət olmur.***

***2019-cü ildən isə müddətdən artıq hərbi qulluqçu MAHHXHQ kimi ordu sıralarına qatılır, 2020-ci ilədək kiçik çavuş vəzifəsində çalışır. 2020-ci il 27 sentyabrında ordumuzun əks hücum əməliyyatına başlaması nəticəsində Qarabağa könüllü yollanır. Vüqar 26 oktyabr 2020ci ildə Şuşa ətrafında gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Baş gizir tank komandiri Qasımov Ramal***



***Baş gizir tank komandiri Qasımov Ramal Saleh oğlu 15.04.1992-ci ildə Gəncə şəhərində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 29.09.2020-ci ildə Talış istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimiz ailəli idi. İmran və Kənan adlı övladları Vətənə əmanətdir.***

***MAXE Feyruzlu Əlibəy***



***MAXE Feyruzlu Əlibəy Samir oğlu 14.09.1998-ci ildə Ağdaş rayonu Şəmsabad kəndində anadan olub. O, Vətən müharibəsində igidlik və mərdlik göstərərək 25.10.2020-ci ildə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.***

***Şəhidimizin qardaşı sərhəd qoşunları giziri Məmmədov Feyruz isə Vətən müharibəsində Murov, Cəbrayıl, Füzuli və Qubadlı istiqamətində döyüşüb.***